

# Sevimli pedaqoq, mahir tədqiqatçı

Əməkdar incəsənət xadimi, professor, Azərbaycan Bəstəkarlar İttifaqının katibi Zemfira Qafarova haqqında bu məqaləmizin sərlövhəsini onun həmkarı və bizim də çox hörmətli mərhum müəllimimiz Xalq artisti, professor Ramiz Zöhrabovun 1993-cü ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuş yazısından götürdük. Yazıda Ramiz müəllim Zemfira xanımın xidmətlərini çox dolğun şəkildə ifadə edir.

Məqalədən bəzi fikirlərə nəzər salaq: "Zemfira Qafarova Azərbaycan musiqişünaslarının istedadlı nümayəndələrindən biri, bacarıqlı pedaqoqdur. Musiqi ictimaiyyəti onu bir neçə monoqrafiyanın, kitabların, yüzdən artıq elmi-populyar publisistik məqalənin müəllifi kimi tanıyır. Zemfira Qafarovanın bir musiqişünas kimi maraq dairəsi çox genişdir".

Zemfira xanım fədakar musiqişünasdır desək, yanılmarıq. Çünki o, musiqişünaslığın tələb etdiyi bütün istiqamətlərdə fəal çalışaraq uğurlu göstəricilər əldə edib. Onun bir müəllim olaraq musiqişünasların yetişməsində, tədqiqatçı kimi bəstəkarların, ifaçıların yaradıcılığının təbliğində, musiqi irsimizin tədqiqində mühüm rolu var. Müxtəlif auditoriyalarda, radio və televiziya verilişlərində maraqlı çıxışları, dövri mətbuatda nəşr olunan məqalələri yaradıcılığının uğurlu nailiyyətləridir.

Zemfira xanımı belə şövqlə yazıb-yaratmağa sövq edən həm istedadı, həm də böyüdüyü mühitin təsiridir. Çünki o, tanınmış incəsənət xadimlərinin nəslindəndir. Atası Həsən Haqverdiyev, anası Güllü Mustafayeva Azərbaycan rəssamlıq məktəbini təmsil edən məşhur simalar olmuşlar. Qardaşı Əli Haqverdiyev müğənni, rəssam və aktyor kimi incəsənət aləmində xüsusi izlər qoymuşdur. Bacısı Rəna İsmayılova mahir orqan ifaçısı kimi nəinki Respublikamızda, onun hüdudlarından kənarda da tanınır. Hazırda Almaniyada çalışaraq Azərbaycan musiqi mədəniyyətini təbliğ edir. Zemfira xanımın dayıları – görkəmli bəstəkarımız Ramiz Mustafayev və dirijor Faiq Mustafayevin milli və professional musiqimizin inkişafında böyük xidmətləri olub. Belə bir mühit, təbii ki, Zemfira xanımın yaradıcılığına çox müsbət təsir aşılayıb. Onun həyat yoldaşı Əmir Qafarov uzun illər teatr və musiqi sənətini yüksək peşəkarlıqla təbliğ etmişdir. Bu təsirlər Zemfira xanımın övladı Seyran Qafarovun da musiqiçi kimi yetişməsinə və musiqişünas alim kimi fəaliyyətinə təkan vermişdir. Bir sözlə, Zemfira Qafarova sayılıb-seçilən bir nəslin layiqli davamçısıdır. Bu yerdə onun ömür kitabından bəzi səhifələri vərəqləyək. Sənət dünyasına 2 saylı musiqi məktəbində fortepiano ixtisası üzrə qədəm qoyan Zemfira Qafarova 1957-ci ildə A.Zeynallı adına Bakı Musiqi Texnikumuna (indiki Musiqi Kolleci) daxil olur.

1961-ci ildə Texnikumu bitirdikdən sonra təhsilini Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademi-

yası) tarix-nəzəriyyə fakultəsində davam etdirir. 1966-cı ildə təhsil ocağını fərqlənmə diplomu ilə bitirərək orada müəllimlik fəaliyyətinə başlayır. İndiyədək bu tədris ocağında fəaliyyətini davam etdirir. 1984-cü ildə sənətşünaslıq namizədi, 1986-cı ildə dosent, 1993-cü ildən professordur. 1981-1991-ci illərdə tarix-nəzəriyyə fakultəsinin dekanı olub. 1973-cü ildən Bəstəkarlar İttifaqının üzvüdür. Azərbaycan Bəstəkarlar İttifaqının VIII qurultayında idarə heyətinin üzvü, IX qurultayda isə İttifaqın katibi seçilmişdir.

Zemfira Qafarova Azərbaycan musiqi mədəniyyətinə bir çox dəyərli mənbələr bəxş edib. Bu sırada Ü.Hacıbəylinin "Koroğlu" operası haqqında tədqiqat işini, "Ramiz Mustafayev", "Tofiq Bakıxanov", "Şəfiqə Axundova", "Hacı Xanməmmədov", "Telman Hacıyev", "Əli Haqverdiyev" monoqrafiyalarını, çoxlu sayda elmi məqalələrini, resenziya və oçerklərini misal göstərə bilərik.





Onun Azərbaycan musiqi mədəniyyəti tarixində öz yeri, öz dəsti-xətti var. Gözəl müəllim, alim olmaqla bərabər, çox səmimi və xeyirxah bir insandır.

Ömrünün müdrik çağlarında həyat onu çox ağır bir sınağa çəkdi. Layiqli vətəndaş, gərəkli övlad və dəyərli ziyalı kimi böyüdüb boya-başa çatdırdığı övladı Seyran sağalmaz bir xəstəlikdən dünyasını dəyişdi. Seyran Qafarovun vəfatı yalnız Zemfira xanımı deyil, bütün musiqi ictimaiyyətini, onu sevənləri sarsıtdı, qəlbən hamı bu açıya ağradı, göynədi. Təbii ki, bu acının ən ağır yükünü Zemfira xanım daşıyır. Ö, öz ana fəryadını içində yaşaya-yaşaya yenə də çalışır, işləyir, yazır-yaradır və ən başlıcası insanlardan qayğı və mehribanlığını, gülən çöhrəsini əsirgəmir. Həyatın ən ağır-acısını görərək ona sinə gərən bu mərd qadın hər mənada örnəkdir. Onu tanıyanların hər biri üçün çox dəyərli vətəndaş, müəllim, şəxsiyyət, alim, ictimai xadim Zemfira Qafarova var. Bu sadalananların ən ali zirvəsi onun yüksək insani keyfiyyətləridir. Elə Zemfira xanım da daim tələbələrinə əsil insanlığın mahiyyətini və həyat məktəbindən düzgün dərs almağı aşılayır.

80 illik ömrünün 50 ildən çoxunu məhz bu dəyərli düşüncələrlə və böyük fədakarlıqla yaşayan Zemfira Qafarovanın ömür yoluna saldığımız qısa bir nəzərdən gəldiyimiz qənaət görkəmli musiqişünas-alim Ramiz Zöhrabovun fikirləri ilə üst-üstə düşür. O haqlı olaraq Zemfira xanımı sevimli müəllim, mahir tədqiqatçı adlandırırdı. Bu fikrə istinad edərək sevimli müəllimimiz, mahir tədqiqatçı Zemfira Qafarovanın ömrünün 80-ci pilləsində tələbələri, dostları, doğmaları, həmkarları bir sözlə bütün onu tanıyıb sevənlərin adından ürəkdən təbrik edir, əziz müəllimimizə can sağlıqlı ömür arzulayırıq.

**Səadət TƏHMİRAZQIZI**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru,*
*Əməkdar mədəniyyət işçisi*